İlham övladları

NİZAMİ

Bu hansı əsr idi, hansı qərinə?
Torpaq köks ötürdü, yer parçalandı.
Od düşdü Gəncənin meşələrinə,
Yüzillik palıdlar alışdı, yandı.

Sabun köpüyütək qabardı torpaq,
Qabardı, qabardı, partladı birdən.
Alov parça-parça, od qalaq-qalaq
Qalxdı mağmalardan – atəşli yerdən.

Zəlzələ! Bəşərin ilk vahiməsi,
Sonsuz uğultular, atəş vulkanı.
Min il buxovlanmış əjdaha səsi
Lərzəyə salırdı bütün dünyanı.

Bir vaxt hamar olan bu düzən, bu çöl
Odlu eniş-yoxuş, dağlı-dərəli.
Zirvədə yarandı lacivərd bir göl,
Ellər "Göygöl" dedi onu görəli.

Gəncənin görkəmi dəyişdi bütün,
Dedilər gözəllik gəldi cahana.
Bir az aşağıda elə həmin gün
Ağrılar çəkirdi boylu bir ana.

Göylərə qaldırıb titrək əlini
Yusif dua etdi ibadət ilə.
Öz bari-həmlini Gəncə gəlini
O gün qoydu yerə məşəqqət ilə.

O gün zəlzələli qoca aləmə
İlyas Yusif oğlu göz açıb baxmış.
Göygöllə Nizami, yurda sən demə
Həmin bir gün şöhrət yaranacaqmış!

İnqilab olurmuş təbiətdə də,
Bu təsadüf deyil, haqq-hesab idi.
Göygöllə Nizami həqiqətdə də
Yurdumda birinci inqilab idi.

1972

DANTE

Oldu cüdayi-vətən ömrünün gənc yaşında,
Nə rütbəsi, nə böyük şan-şöhrəti var idi,
Nə dəfnə yarpağından çələng vardı başında.

Xəyalında dolaşan şirin arzular idi:
Çıxar Florensiya rəzalət caynağından...
İstəyi bir uğurlu, çiçəkli bahar idi.

Bonifatsi o zaman kəlisa bayrağından
Tutmuşdu ikiəlli, əməlində fitnə, şər.
Əxlaqsızlıq yağırdı kilsənin qucağından.

Nadan ikiüzlülər, rüşvətxorlar, əyrilər
Kilsədə vaiz idi, təxti-tacda hökmran.
Keşiş hakimdən alçaq, hakim keşişdən betər.

O şəxslər ki ömrünü verə bilərdi qurban
Gülsün Florensiya, çatsın şana-şöhrətə –
Onlar zindan küncündə çürüyürdü haçaqdan.

Lakin İtaliyanı bir parça yağlı ətə,
Ya bir boyun xaçına, bir rütbəyə satanlar
Qurşanırdı sarayda kcyfə, eyşü-işrətə.

El malını xəlvəti öz malına qatanlar,
Özlərinə seçərək şit məddahlıq peşəsi,
Bu yolla da yüksəlib ad-sana çatanlar.

Göz dolu, könül dolu çəkib həyat nəşəsi,
Hər cür alçaqlığı da çevirirdi qanuna...
İtaliya – dünyanın şeir, sənət guşəsi.

Elə bu vaxt Danteni bəxş elədi cahana,
Demək mərd övladını dar gündə verir vətən,
Taleyini oğluna belə tapşırır ana!

Fəqət o nə keşişdi, nə də hökmlər verən,
Yalnız qələm-kağızı, təbi, ilhamı vardı.
Amo sahillərini seyrə çıxardı hərdən.

Gözəlliyə, saflığa xoş sonetlər yazardı.
Bir gün gəldi rastına Beatriçe – gözəl qız,
Varlığını sönməyən məhəbbət odu sardı.

Bəlkə də olmasaydı həyat belə amansız
"İstidən donardı o, soyuqdan yanardı o!"
Bir məhəbbət şairi olub qalardı yalnız.

Köhnə nəğmələrin də zəncirini qırdı o,
Keçə-keçə "Əraf"ı, "Cəhənnəm"i, "Cənnət"i
İtaliya ellərinə sanki bir-bir vardı o.

Buna görə özünə vətən etdi qürbəti,
Beatriçe – gözəllik, Vergili – zəka, ağıl
Oldu ilk müsafiri, həyanı, həmsöhbəti.

Həyatda gördükləri nə əfsanə, nə nağıl,
Nə xəyal məhsuluydu – acı həqiqət idi.
Hayqırdı var səsiylə: ey həyat, uçul, dağıl!

Bunu deyən nə kilsə, nə də səltənət idi.
Adi şair deyirdi bu atəşli sözləri –
Əsrlərə, xalqlara bu bir xitabət idi.

Onunçün də əbədi sürgünlər oldu yeri,
Yer tapmadı yurdunun torpağında, daşında.
Arzusu xoş gələcək, azad vətən səhəri.

Nə dəfnə yarpağından çələng vardı başında.
Nə ad-sanı; ilhamı güntək saçsa da ziya.
Oldu cüdayi-vətən ömrünün gənc yaşında.
Bax, beləcə yarandı "İlahi komediya".

1972

NƏSİMİ

Dinlə, rəssam, sözümün hikmətini,
Burda kim gizləyəcək heyrətini?
Dini-islamə tapındıqca elin
Sındı fırçan və əlin!

"Şəkli çəkdin – ona can verməlisən,
Qəlbinə sən həyəcan verməlisən,
Onu hökmünlə danışdırmalısan,
Küsdürüb sonra barışdırmalısan,
Ağladıb sonra da güldürməlisən!
Yaşadıb sonra da öldürməsindən"
Belə bir hökmü şəriət verdi,
Fırçana bax, belə qiymət verdi.
Bunu Allah bacarar – söylədi o,
Sənə rəsmi qadağan eylədi o.

Keçdi günlər, sənələr, keçdi zaman
Rafael sənətini gördü cahan,
Rembrandtın adını bildi bəşər,
Tək səni din ilə zəncirlədilər.
Öldü könlündə Qobustan rəsmi,
Bu qədim torpağadastan rəsmi.
Nə Füzuli, nə də Vaqif o zaman

Düşmədi bircə kağız parçasına.
De, rəvadırmı gözəllik yaradan
Əl buxovlarda qala, fırça sına?!
İndi zəhmətlə açırsan səhəri:
Oxuyub cüngləri, təzkirələri
Altı yüz il geri addımlayaraq
Qanlı-qırğınlı, fəqət doğma, uzaq
Aləmi bir də görürsən, rəssam!
Sənə bir canlı qanaddır ilham.
Babamız şair İmadəddini sən
Əbədən görməmisən.
Sən xəyalən çəkəcəksən deməli?
Nə böyükdür əməlin!
Çökəcəksən, bilirəm qüdrətini,
Çünki dünyaya sənin şöhrətini
Nə zamandır ki, tanıtmış fırçan.
Qardaşım, bircə ricam var ancaq:
Sən Nəsimini çəkərkən elə çək
Baxışından səpələnsin şimşək.
Günəşin nurunu doldur gözünə,
Kişilik nəqş elə dönməz üzünə.
Kişilik – atəşə yansın dönməz!
Soyunub buzda uzansın – dönməz!
Kişilik – tərsə soyulsun – dönməz!
Gözü xəncərlə oyulsun – dönməz!
Kişilik – rütbədən ensin – dönməz!
Əyninə dərdi geyinsin – dönməz!
Kişilik – bir tikəsin daldalamaz!
Kişilik – söz dedi – udmaz, yalamaz!
Kişilik – başladı qoymaz yarıda,
Söyləyər qul da mənəm, şah da mənəm.
O salar heyrətə allahları da,
Söyləyər tanrı da, allah da mənəm!
Babamız şair İmadəddini sən
Qardaşım, bax, bu sayaq çəkməlisən.
Rəsmini seyrə dalarkən hər kəs,
Donub heyrətdə qalarkən hər kəs,

Biri: – Yalnız Qalileydir bu! – desin.
Biri israr ilə: – Cordanodur!
Tez Nəsimini düşünsün birisi:
– Bu odur, – qoy deysin, ancaq bu odur!!!
Bu olar şerin al səmasında,
Bu olar tanrı iddiasında!

1972

BAYRON

Şair azadlıqçün doğulub ancaq,
Azadlıq yolunda ölməlidir o.
Dil dustaq, el dustaq, nəğmə də dustaq –
Lüğətdən bu sözü silməlidir o.

Lakin belə anda zindanbanlara,
Mədhlər oxuyan şairlər də var.
"Bu dünya beş gündür – beşi də qara,
Təriflər, ənamlar verər hökmdar".

Fəqət Apollonun sadiq övladı
Şerini satmadı dəllallar kimi.
Ona verilsə də bir gün lord adı,
Lordluqdan uzaqdı odla qar kimi.

Şerinin ahəngi, sözünün odu
Gəzdi ölkə-ölkə, el-el dolandı.
Oldu öz əsrinin Çayld Haroldu,
Azadlıq eşqilə alışdı, yandı.

Eşitdi inləyir yunan torpağı,
Soyuq əllərində sərt ruzigarın.
Homerin müqəddəs şeir bayrağı
Dalında qalıbdır barmaqlıqların.

Eşitdi Heraklın bağlanıb qolu,
Solur gözəlliyi Afroditanın.

Eşitdi kəsilib Olimpin yolu,
Qalıb qucağında ölümün, qanın.

Qaldırdı bayraqtək şair adını.
Unutdu lorddu o, ingilisdi o.
Yunan torpağına nicat gəzdi o,
Atdı alovlara öz həyatını.

Bir əlində qələm, birində silah
Yunan millətinin çatdı dadına.
Üfüqdə doğanda qızıl bir sabah
Burda nöqtə qoydu öz həyatına.

Öldü azadlığa havadar kimi,
Sanki bir əsgərdi, Bayron deyildi.
Azadlıq önündə bir zəvvar kimi
Dizləri büküldü, başı əyildi.

Şair azadlıqçün doğulub ancaq,
Azadlıq! Əbədi gəlməlidir o!
Son anda söylədi qurumuş dodaq:
"Azadlıq yolunda ölməlidir o!"

1973

BÖYÜK VAQİFƏ

Böyük Vaqif, keçdi illər,
İl bir yerdə qala bilməz.
Əsrlərdə hanı hünər? –
Səni məndən ala bilməz!

Eşq şairi!
Bu eşqə bax!
Şirvan, Muğan, Mil, Qarabağ
Gəzir el-el, oymaq-oymaq
Sərhəd bilməz, qala bilməz.

Sənin eşqin, sənin dühan,
Şahları da qoydu heyran.
Yaxşı sözdür: "Hər oxuyan
Molla Pənah ola bilməz!"

Qoşmaların, qəzəllərin
Əzbəridir gözəllərin.
Söz ilhamsız olsa yəqin
Ürəkləri çala bilməz.

Gəz indi Kür qırağında
Gəncə, Bakı torpağında
Heykəlinin ayağında
Tər çiçəklər sola bilməz.

Şairlər var dəstə-dəstə
Hər birisi bir həvəsdə.
Fəqət sənin adın üstə
Kimsə kölgə sala bilməz.

Kürçaylı da körpə quşdur,
Budağında oturmuşdur.
Hara getdi, hara uçdu –
Dönər, sənsiz qala bilməz!

1968

NATƏVAN

Bu yerdə ağac da, daş da, torpaq da
Şerlə dil açır, nəğmə oxuyur.
Bir quş lələyində, bir ağ varaqda
Neçə dastan yatır, nəğmə uyuyur.

Nə şahlar, xaqanlar, nə din, şəriət
Şeir rübabını qıra bilməyib.
Çadralar zindana çevrilib, fəqət
Nəğmənin önündə dura bilməyib.

Bizim Qarabağın təbiətimi
İlhama gətirdi onu bir səhər?
İnsanın zamandan şikayətimi
Etdi Xan qızını bir sinədəftər?

Ananın bir oğul faciəsimi
Ona – yarat, – dedi, ona – yaz, – dedi?
Bizim anaların ağlar səsimi
"Dərd qalsa sinədə sağalmaz" – dedi?

O özü göylərdən ilham dilədi.
Yoxsa rübab verdi ona kədər-qəm?
Onu zaman özü şair elədi,
Yoxsa ki...
Bilmirəm...
Onu bilmirəm –

Bu yerdə ağac da, daş da, torpaq da
Şerlə dil açır, nəğmə oxuyur.
Bir quş lələyində, bir ağ varaqda
Neçə dastan yatır, nəğmə uyuyur.

Fələyin qəhrinə şeri, sözüylə
Ağladı Natəvan, güldü Natəvan.
Elin kədərini elin özüylə
Yavan tikə kimi böldü Natəvan.

Camalı bir günəş, üzü aypara,
Saçları gecənin gözündə qara.
Vəfasız dövrana, vəfasız yara
Söz qoşan yanıqlı dildi Natəvan.

Qəlbinə söylədi: güntək yaşa, yan,
Qalar el dilində yanıb yaşayan.
Dönüb tunc heykələ, gözəl Şuşadan
Bakının qoynuna gəldi Natəvan.

1973

SABİR BAĞINDA

Payız yarpaq tökür dalbadal üstə,
Ayağı altına çiçək səpir yaz,
O, sakit oturub pyedestal üstə
Baxıram, beli də əyilib bir az.

O heykəl yaradan bir sənətkarın
Nöqsanı deyildir, səhvi deyildir.
O bel qəm siqlətli acı ruzgarın
Yumruğu altında belə əyildi.

Axı, heykəltəraş neyləsin buna,
O beli qəm yüklü zaman əyibdir.
Kim dözər möhnətin ağırlığına?!
Möhnətlər o beli yaman əyibdir.

Bir xalqın taleyi, bir xalqın dərdi
Qoyulub çiyninə qurğuşun kimi.
Bu dərdin altında dağ əriyərdi,
Düzə səpilərdi narın qum kimi.

Şairlər gül deyib, bülbül deyəndə
O yazdı göz yaşı, əzab, iztirab.
"Liriklər" xəstətək inildəyəndə
Şairim hayqırdı – döyüş, inqilab!

Onun gülüşləri göz yaşı oldu,
Sevinci – hönkürtü, təbəssümü – qəm!
O gələn aləmin sirdaşı oldu,
Şerində can verdi ölən bir aləm.

Budur, fikirlidir yenə də Sabir,
Bahar çiçək səpir dalbadal üstə.
Yox, o, keşməkeşli canlı əsrdir –
Oturub qranit pyedestal üstə!

1961

ELEGİYA

Səməd Vurğunun xatirəsinə

O, xoş dilli, xoş avazlı
bir nəğməkardı,
Bu günlərin büsatına
dastan yazardı.
Hər məclisdə şirin sözü,
söhbəti vardı.
Dolaşardı nəğmələri
ellər içində.

O əsrarlı nəğməkarı
dinlədikcə biz,
İftixarla döyünərdi
ürəklərimiz.
İndi həmin o nəğməkar
səssiz-səmirsiz
Yatır bir vaxt vəsf etdiyi
güllər içində...

1956

MƏNİM MUSİQİM

"Leyli və Məcnun" operasının
tamaşaya qoyulmasının
50 illiyi münasibətilə

Çal, çal! Bu nəğmələr mənə tanışdır,
Tanışdır inləyən bu rübab mənə.
Bir elin dərdini dindir, danışdır,
Versə də hər xalı iztirab mənə.

Çal, çal! Bu torpağın nəğməsidir o,
Yaranıb bu yerin öz mayasından.
Qaynar bulaqların nəfəsidir o,
Yaranıb dumanlı dağ havasından.

Doğma anamızın laylası qədər
Hər xal, hər zəngulə bizə əzizdir.
Bir ağı, gəraylı havası qədər
Xoşdur, müqəddəsdir, safdır, təmizdir.

Onu dinləyirik düz əlli ildir,
Qoy fəsillər keçsin – dinlərik yenə.
Ürək bu nemətdən doyan deyildir,
Keçsə də yüz əsr, yüz min qərinə.

Uzun illər boyu o çalınanda
Qalxıb radionu buran olmayıb.
Üzeyir məclisindən hələ bir an da
Yoruldum deyərək duran olmayıb.

Çal! Vətənsiz deyil mənim musiqim,
Onun öz ləhcəsi, öz ahəngi var,
Anlayır dilini kolxozçu, alim,
Hər pərdə üstündə neçə rəngi var!

Azərbaycan dilim, Muğan çörəyim,
Şirin Kür suyumtək müqəddəsdir o.
Çal! Vətənsiz deyil mənim musiqim,
Bu elin qəlbindən qopan səsdir o!

Ey böyük Üzeyrin nəcib balası –
Leylinin, Məcnunun könül nəvası,
Gözəl Qarabağın, Milin havası,
Şirvanın, Qazağın gözü səndədir!

Kəpəzin, Qoşqarın, bizim mahalın
İncə bir ruhudur sənin hər xalın.
Tarın, kamançanın, sazın, qavalın
Söhbəti səndədir, sözü səndədir!

Öz doğma elində sevilməyən kəs
Özgə bir eldə də sevilə bilməz!
Sənsə hər millətə oldun müqəddəs,
Çünki bu torpağın özü səndədir!

1958

SƏNƏTİN QÜDRƏTİ

Məşhur rus rəssamı
K.P.Brüllovun "Türk qızı"
şəklinə baxarkən

O türk qızı başım üstə
Dirsəklənib yatağına,
Qara saçı halə kimi
Dövrə vurub qulağına.

Zər baftalı qara donu,
Allah, necə tutar onu!
Əyilibdir yana boynu,
Kölgə düşüb buxağına.

Qaşlar – qara, göz – badamı,
Dəli elər hər adamı.
Bürünübdür gül əndamı
Tirmə şalın saçağına.

Çırtma vursan – yanağından
Axacaqdır sanki al qan.
Təbəssümdür, ya həyəcan
Qonub onun dodağına?

Seyr edirəm bu şəkli mən,
Danışacaq sanki birdən.
Türk gözəli, xoş gəlmisən
Kürçaylının otağına.

Moskva, 1950

LORKA HAQQINDA QARAÇI ROMANSLARI

Birinci romans

Mənə kaman verin siz, bir qaraçı kamanı,
Titrəyən nəfəsimlə oyadım bu cahanı.
Səhrada tonqal çatın, vurun ətrafda dövrə,
Ulduzlar parça-parça sınıb tökülsün yerə.
Sinəm kimi yaralı bir kaman verin mənə,
Səpim ürək sözümü mən onun tellərinə,
Mənə bir kaman verin o hıçqırsın, inləsin,
Qoy kədərli nəğməmi bütün dünya dinləsin.
Qoy qaraçı kamanı ağlasın pərdə-pərdə,
Oyansın, dilə gəlsin köhnə xatirələr də.
Qoy kamanım danışsın könlümün möhnətini,
Bir qaraçı oğlunun qəmli hekayətini.

İkinci romans

Mənə gitara verin, tellərində hıçqırıq,
Qoy qaraçı nəğməmi oxusun qırıq-qırıq.
Bir qaraçı gözüydü onun gözü – qapqara,
Oxu, oxu, gitara!
Onun qırışsız alnı geniş səhraydı, səhra,
Oxu, oxu, gitara!
O, anadan olanda adicə bir uşaqdı,
Min-min uşaqlar kimi,
Dünyanın hər qəmindən, möhnətindən uzaqdı,
Bütün uşaqlar kimi.
İlk dəfə qulaq asdı kədərli laylalara,
Oxu, oxu, gitara!
Bildi: sirdaş yaranır dərdə, qəmə, qubara,
Oxu, oxu, gitara!
Qaraçı kamanından qopan kədərli səslər,
Bəlkə kiçik Lorkanı şair etdi bir səhər!

Qaraçı kədərindən dünyada dərin nə var?!
O titrəyən mahnılar, o titrəyən nidalar!..
Sanırsan yer titrəyir, titrəyir asiman da
Bir qaraçı havası səslənəndə kamanda.
Görünür, o mahnılar can atırdı bahara...
Qaraçı kamanıyla birgə oxu, gitara!

Üçüncü romans

Mən faşist kəlməsini eşidəndə uşaqdım,
Onun fəlsəfəsindən, mənasından uzaqdım.
İllər dalında idi hələ 41-ci il,
Nə xaçnişan ordular, nə gurlayan sinc-təbil
Yuxusuz qoymamışdı obaları, elləri.
Hələ uzaqda idi ölüm-dirim illəri.
Atam varaqladıqca qəzetləri əsəbi
Oxunurdu gözündən onun kini, qəzəbi.
Faşizm, Qrenada, İspaniya... bu sözlər
Atamın dodağından düşmürdü axşam-səhər.
Bir gün də işdən evə hüznlü, yaslı gəldi,
"Bir şair öldürdülər..."
Atam doldu, kövrəldi.
"Of, faşistlər Lorkanı... Öldürdülər, Lorkanı,
Belə də iş olarmı, töküldü şair qanı!.."
"Şairlər ölməz!" – deyə daima düşünən mən
Titrədim yarpaq kimi "öldürdülər" sözündən.
Uşaqlıqdan tanışdı mənə şair kəlməsi.
Bu sətri oxuyanlar indi mənə gülməsin.
Şair bahar deməkdir – o vaxt belə sanardım,
Günəş, ulduz, ay, səma şairdir, inanardım.
İnanardım, şairdir o çaylar ki, dərindir,
Dan yeri də şairin alışan gözləridir.
Sanırdım ki, şairdir çiçəklərin dəstəsi,
Şairdir nəğmələrin sözü, rəngi, bəstəsi.
"Faşistlər öldürdülər Lorkanı" – bu sözdə mən
Faşizm kəlməsini başa düşdüm dərindən.
Şairi yox, günəşi onlar öldürdü, sandım,

Onlar ayı, ulduzu öldürdülər, inandım.
Onların əlləriylə, sandım, öldü dan yeri
Onlar öldürdü, sandım, gülləri, çiçəkləri.
Onlar öldürdü sandım, gözəllik dünyasını,
İlkin onda anladım faşizmin mənasını.

Dördüncü romans

Şıltaqlıq dünyamız – uşaq dünyası
Cidala çıxardıq çayla, dənizlə.
Sığırçın, sağsağan, qarğa yuvası
Uçub dağılardı əllərimizlə.

Bülbül yuvasına dəyməzdik ancaq,
Bu bir tövsiyəydi ata-babadan:
Bir bülbül yuvası uçulursa bax,
Dağılar, iz qalmaz eldən-obadan!
Lorka, söyüd gördüm Kür qırağında,
Onu əks cləyir suyun aynası.
Ən nazik, ən yaxın bir budağında
Dəydi gözlərimə bülbül yuvası.

Yanından insanlar keçir – dəyməyir
Bübülü seyr edir onlar budaqda.
Dəcəl uşaqlar da onu əyməyir,
Bülbül yuvasını sökmür uşaq da.

Lorka, gəzir bu söz dildə nə vaxtdır:
"Nəğməkar müqəddəs sayılır eldə".
"Şairlə bülbülə dəymək günahdır" –
Yaranıb belə bir zərbi-məsəl də.

Səni öldürdülər, günah deyilmi?
Lorka, yuvan döndü soyuq məzara
Qaraçı qəlbinin həsrəti kimi
Dillən, dərdli kaman, dillən, gitara!..

Beşinci romans

Mənə bir bahar verin – qış günü gəlmiş olsun,
Mənə günəş verin siz, gecə yüksəlmiş olsun.
Mənə şair verin siz, soyulsun diri-diri,
Əynindən köynək kimi soyundurulsun dəri.
Bir şair ki, həyatı zindan axşam-səhərli,
Şandor Petefi sözlü, Musa Cəlil hünərli.
Sabir kimi vərəmli, Nazim kimi dərbədər,
Lermontov kimi sürgün, Şevçenko kimi əsgər.
Mənə gitara verin, mənə kaman verin siz,
Ürəyimin qaraçı telini dindirin siz.
"Bir qaraçı oğluyam mən,
Səhrayidir nəslim mənim.
Dünyaya göz açan gündən
İspaniyadır ilk vətənim..."
Yox, mənə tonqal verin alovu ətək-ətək,
O tonqalda alışım Cordano Brunotək!
Lorka, Lorka, yanmaqdır şairlərin qismәti,
Yanmaqda tapdı onlar ən böyük həqiqəti.
Səhərlər oyanırkən şairin nəğməsilə
Hökmdarlar şairdən niyə qorxurlar belə!
Onlar məhbəslər tikir, tonqallar yandırırlar.
Nəğmələrdə döyünən qəlbi dayandırırlar.
Qəlbim riqqətə gəldi, mənə kaman verin siz,
Ürəyimin qaraçı telini dindirin siz!

Altıncı romans

Qrenada, hazıram, məni də matador yaz,
Söylə, yadındadırmı sənin Sanços Mexias?!
Yadındamı, yellədib qırmızı parçasını
Öküzlərin belinə sancardı cidasını?
Lorka, o vaxt yorurdu səni sonsuz fikirlər:
Öküzlər qırmızıdan niyə qorxur bu qədər?!
Hökmdarlar şairdən niyə qorxurlar belə?!
Öküz məhv eləməzmi Sançosu zərbəsilə?

Şairlər,
hökmdarlar,
öküzlər,
matadorlar,
Qırmızı rəngli parça
azadlıq,
qəmli diyar...
Şair də matadordur,
Əlində qızıl şülək
Görünür, azadlığın qırmızı bayrağıtək!
Ey matador, qırmızı parçanı mənə ver sən,
Gərək deyil, yox, onu alaram dan yerindən!
Yox, qızarmış üfüqü götürərəm büsbütün!
Yox, günəşi səmadan alacağam mən bu gün!
İstərəm atəşimdən üz-gözüm də qarsıya.
Şair-matador gəlir,
Gəlir Lorka Qarsia!

Yeddinci romans

Mənə kaman verin siz, bir qaraçı kamanı,
Titrəyən nəfəsimlə oyadım bu cahanı.
Mənə gitara verin, tellərində hıçqırıq,
Bu qaraçı nəğməmi oxusun qırıq-qırıq:
Bir parça öldürdülər dünya səadətindən...
Bir parça öldürdülər baharın dəmətindən...
Bir nəğmə öldürdülər ürəyin telindəcə...
Dillərə yayılmamış... Öz ana dilindəcə...
Bir şair öldürdülər, qaraçı qəlbi vardı,
İspaniya xalqının taleyilə yanardı.
Matador öldürdülər, əlində al parçası,
Bir insan öldürdülər – dan yerinin carçısı.
Bir insan öldürdülər – insanların insanı,
Din, qaraçı kamanı!..
Bir insan öldürdülər, qaş qara, gözlər qara,
Oxu, oxu, gitara!..

1965

MÜNDƏRİCAT

Səfərdən qalmayan ömür 4

DÜŞÜNCƏLƏR

DAŞLAR

"Özünü dərk edib duyduğu gündən" 19
Bulaq adəti 20
Çay daşları 21
Daş qalası 22
Yol üstünə düşən daş 23
Mehdi daşları 25
İnamın daş heykəli 27
Məzar daşları 29
Bənna ilə söhbət 31
Daşlı qitələr 33
"Sən olasan mənimlə kaş" 33
"Daşdan yaza-yaza elə bilməyin" 34
"Daş atdım su ləpələndi" 35
Daş və su 35

SƏNDƏN UZAQDA

1. Həsrət 37
2. Əcnəbi 38
3. Duz-çörək 40
4. Nar ətri 41
5. Mühacir 41
Britaniya dəftəri 43

AKTYOR DOSTUMUN SÖHBƏTLƏRİ

Başçılar 63
Robot, robot! 67
Futbol və Şekspir 69
Aktyorun məhəbbəti 71
Qəzəb 74
Kor bağırsaq 85
Portuqalilya səfəri 88
Sənin əsərin 91
Mütilər 93

Qızıl tac kimi 95
Sonuncu dayanacaq 96
Gözlərin 97
Kədərin rəngi 97
Məhəbbətimiz 99
Hələ ki... 99
Mənim nəyim var 100
Kim kimin adıyla 101
Qətiyyət 103
Vicdan 104
Mustafa müəllim 105
Şəhid meşə 107
Herkulesin çobanlığı 109
Həqiqətlər, əfsanələr 111
"Hər şeyi təzədən başlayaq gəlin" 113
"Gizlətmə gözünü, gözünə qurban" 114
"Bəzən düşünürəm: köhlən bir atam" 115
Bizim planet 116
Vətən 118
Torpağım 118
Yallı 119
Səadət 120
Səfərdən qayıdanda 121
Gəncə çinarının mahnısı 122
Kəndimiz 123
Anamın əlləri 125
Bu yaşımda da 126
Uşaqlığımla görüş 127
Xatirə 129
Kəndli balası 131
Qaloşcütləyən 132
Kəndimizin gözəli 133
Ay eloğlu, biz toyuna gəlmişik 134
Mən olmayanda 135
Kənardan bax özünə 136
Qağayılar 137
Dördkünc günəşlər 138
"Çəmənə demə ki, göyərməyəsən" 138

Dəmirağac 139
"Şair dostum, uzaqlardan gəlirsən" 140
Məktəbli uşaq 141
Delfinlər 142
Atlantlar 143
Qar adam 145
Ana nağılları 146
Qarlı gündə 147
Balıqçı oğlunun nəğməsi 148
Azadlıq 150
Prokrust 150
"Ah, necə ünvana getmir ayağım..." 152
Nə istəyirəm 152
Yalan 153
Qadağan zərbələr 154
Bizə elə gəlir ki... 156
Ziddiyyətlər 156
"Xəzəri bulanıq gördüm bu axşam..." 157
Gecikmiş sərnişin 158
Bakıda isti 158
"Qonşu kupedəki cavan almanla" 159
Talış qızı 160
"Payızda boz sulara durub fikir verəsən" 161
"Mən baxıram bayaqdan" 161
Azad dustaq 162
Elladanın nəvəsinə 164

YADIMA SƏN DÜŞÜRSƏN

"Ən çox saçlarını xoşlayıram mən..." 166
"Sıx buludlar saçaq-saçaq" 166
"Sevgidən danışan şerlərim" 167
"Mənə yaşamağı öyrət, əzizim" 169
Qu quşunun nəğməsi 169
Vurğun göylər 169
"Yox, yox, az olmayıb çətin anlarım" 170
İstərəm 171
"Bir gün xatirimə düşdün təzədən" 172
Yuxuda gördüm ki... 173
"Əynindəki donun bəyaz" 173

Pıçıltılar 175
Axşam qaranlığında 176
"Deyirdim ki, bir daha" 177
Etiraf 177
"Sən mənə lazımsan..." 178
"Torpaq quruyurdu..." 178
"Məhəbbət yolunda..." 179
"Bir qız keçir küçədən..." 189
"Kiçik təkanla da şütüyür qayıq" 180
"Sevgilim, tut əlimdən" 180
"Nə qədər uzağıq bir-birimizdən" 181
"Yenidən enməkçin öz yuvasına" 182
"Xan çinarın gövdəsini" 182
Sevirəm səni 182
Sənindir 183
Cülyetta 184
"İL" uçur sürət ilə 185
"Mən sənin yanına qışda gəlirdim" 185
"Qəlbimtək tutqundur payız səması" 186
"Dənizdə Ay çimirdi" 186
"Gözləyirsən onu könlündə ümid" 187
"Sən dedin: – Ay gözəldi!" 187
"Sevirdim xurmayı hörüklərini" 188
"Telefon budkasının döyülür pəncərəsi" 188
"Elə bildim bahar gəldi" 189
"İnciyib, söylə, nəçin getdin sən?" 190
"Əzizim, vaxtında atılmayan ox" 190
Yadıma sən düşürsən 191
"Meşənin sükut dolu" 192
"İstəmədən düşdü könül" 193
"Gözünə qar üstə güllər görünsə" 193
"Kimsə tanımırdı Məcnunu hələ" 194
"Mənim yazı stolumu" 195
"Ayrılanda söylədin" 195
Belə ola həmişə 196
Kədər nəğməsi 197
Romans 199
"Dedin: sevmirəm səni" 199
"Oğlanlar, evlərdə qızlar böyüyür" 200
"Kim deyir ağaclar hissiz, duyğusuz" 200

"Məni sənə bağlayan" 200
"Ovçumusan, ovmusan?" 201
Hər şey sənindir 201
Heç xəbərin yoxdur sənin 202
"Mən səni yuxuda görürəm hər gün" 203
Yoxsa 203
Güzgü qabağında 204
"Qüssəli çağlarında" 204
Səslə mənni 205
Başıma gəldi 206
"Eşqin bayrağından elə tutmuşam" 207
"Laklı çəkmə ayağında" 207
Saçlar 208
"Taleyimin göylərində" 209
"Gəl, dünyanı gəzək qoşa" 210
"Yerə salma sözümü" 210
"Sevənlərin nə vecinə" 211
"Yanaqlar odlu lalə" 211
"Getdin. Bir acıqla çırpdın qapını" 212
Ucalıq 213
"Orda iki nəfər küsdü, barışdı" 214
"Mənə nəvazişlə dedin bu axşam" 214
Təklik 215
Həsrətin 215
"Gecədən şeh düşdü güllərin üstə" 216
Əbədiyyət 217
Yadına düşürəmmi? 217
"Həkim, mənə o nüsxəni yazma sən" 218
"Ölüm yaxın düşə bilmir" 219
"Qarğalar qar üstə qara xalmıdır?" 220
"Xəstəxana qucağında" 221
"Dilim qabar oldu "gəlmə" deməkdən" 222
"Gündüzlər birtəhər ovunur yenə" 222
"Burda min şövq ilə biz" 222
"Uzanır mavi dəniz" 224
Mənim gəncliyim 224
"Dəniz sakit, hava ılıq, arabir..." 225
İki məktub 225
"Yanır dənizdə bir fanar" 226
Macəra 226

VƏTƏN ƏTRİ

QƏLBİN SIXILSA ƏGƏR

Azərbaycan 231
Bəndəm 231
Dedilər Kür quruyur 232
Vətən ətri 233
"Yenə gəldim Qarabağa" 234
Naxçıvan nəğməsi 235
Söyüd 235
Qara dəniz qapqara 236
Qəlbin sıxılsa əgər... 237
Bakı 239
Sənin yerin görünür 239
"Yollar enişi-yoxuşdur" 241
"Gözümdə qalmayıb arzu da, kam da" 241
Torpağım 242
"Desələr səfərə çıxmaq gərəkdir" 243
Bizim el 244
"Yüz süfrədə müftə nemət dadsan da" 244
Süfrə nəğməsi 245
Dünya ovcumdadır 246
Yollarda axtar məni 247
İllər və heykəllər 249
Qırğızıstan dəftəri 250
Peredelkino 253
Oksana 255
Bir ovuc günəş 256
Onun şəkli 257
"Qoca gördüm bu gün səhər" 258
"Əl eləyir uzaqlar" 259
"Daha gözəl günlərə qovuşsun deyə insan" 260
"Yolda açdım səhəri" 260
"Hər keçəndə bu zümrüdü meşədən" 261
"Göy dənizdə söndü fanar" 262
"Atalar dönsəydi qanlı cəbhədən" 263

HƏYAT

Ömür 264
Balıqlar 265
Nənə və nəvə 266

Qıfıl 267
Sədaqət 267
Həyat 268
Ala buzov 269
Gözəllik ovunda 270
Ləyaqət 271
Qartal əfsanəsi 273
Gözlər və sözlər 273
Dost həsrəti 274
Zirvədə 276
Uşaqlıqda 276
Sünbüllər 277
Faytonlar 278
"Ocaqda şam ağacı" 279
"Bilmirəm işin nə, sənətin nədir" 280
Təpələr 280
Dərinlik 281
"Bir qağayı uçub getdi" 282
Doğum evində 283
Qitələr 284
Yaxşı ki... 285
Nənələr 286
Fəsillər 287
Birinci gün 288
Nənəmin paltarları 289
Qartal 291
Dost kədəri 292
Dəniz insandır 293
Nifrət və məhəbbət 294
"Bilirsən həyat nədir?" 295
"Xərclədim gəncliyi qara pul kimi" 295
"Məhəbbət, qəribə oyunların var" 295
"Tarizən, çaldıqca qurtarmır yenə" 296
"Yaman oxşayırsan deyirlər mənə" 297
Adsız şeirlərim 297
Ay dost! 298
Kor 299
Qağayılar ağlayırdı 300
"İnsan yalnız bir dəfə..." 302
Gecələr ay olmaq istəyirəm mən 303
Bəlkə 304

Mən insanam 305
"Keyfiyyət nişanı" vurulur indi 306
Etibar 307
"Yağışdan qorxuram" 308
Günəşin səsi 309
"Deyin, bu dünyada nə görmüşəm mən?" 309
"Açın qapıları, açın taybatay" 310
Çay 310
"Yol uzundur" 311
İzlər 311
Kəndimizə gəldiyim gün 312
"Zərrəyə, kiçikliyə, cılızlığa yadam mən" 313
İnsan qüdrəti 314
Çörək 315
Yer qazılır 317
Kürüm 318
Tarix dərsi 319
Poeziya 320
Fəxri xiyaban 322
Mənim atam 323
Ana nağılları 326
"Bir qəzet parçasına bükülübdür naharım" 327
Bülbül səsi 328
Bizim yerlər 328
"Keçdiyim yerlərdən keçib Kür çayı" 329
Muğanın qışı 330
Şair taleyi 332

BÜTÖVLÜK

Söhrab və Tahirə 333
Narbənd ağacı 336
"Mən sənə demirəm aylı gecələr" 338
Görüş günü 338
Dağlarda 340
Cənubun dərdi 341
Fillər də ağlayar 341
Yedək gəmisi 346
Savalanın zirvəsində qar görürəm 347
Sənin saçların 348
Oxu! 350
"Araz Astaraçay axır lal kimi" 351